**UOT: 33.331**

***Məhin Xəqani qızı ŞAHSUVARLI***
***Azərbaycan Kooperasiya Universitetinin dissertantı***
***E-mail: mehin.haciyeva.92@bk.ru***

# İNTELLEKTUAL KAPİTAL SOSİAL-İQTİSADİ İNKİŞAFIN ƏSAS PRİORİTETİ KİMİ

***Xülasə***

Məqalədə qeyd olunur ki, sosial-iqtisadi inkişafın əsas prioritetlərindən biri kimi, insan kapitalı və onun sosial vəziyyətinin yaxşılaşdırılması çıxış edir. Sosial inkişaf, öz növbəsində, iqtisadi inkişafla sıx bağlıdır. Məhz bu baxımdan insan kapitalına dövlətin sosial xərcləri, yeni təhsil, səhiyyə, elmə çəkilən xərclər, əməkhaqqı və s. təsir göstərir və onların artırılması insan kapitalının intellektual inkişafı deməkdir.

**Tədqiqatın məqsədi** – ölkənin sosial-iqtisadi inkişafının əsas prioriteti kimi insan kapitalı, onun intellektual inkişafı, sosial vəziyyətinin yaxşılaşdırılması və bu istiqamətdə təklif və tövsiyələrin işlənməsidir.

**Tədqiqatın metodologiyası** - tədqiq edilən problemə sistemli və kompleks yanaşma, müqayisəli təhlil, statistik qruplaşdırma və iqtisadi təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** alınmış nəticələr Azərbaycan Respublikası iqtisadiyyatının müasir inkişaf xüsusiyyətlərinin müəyyən edilməsində nəzəri və praktiki baxımdan istifadə oluna bilər.

**Tədqiqatın nəticələri -** Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsində insan kapitalının səmərəliliyinin artırılması, onun intellektual səviyyəsinin yüksəldilməsi – intellektual kapitalla bağlı təklif və tövsiyələrin hazırlanmasıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə qoyulan problemin dünya təcrübəsi öyrənilmiş, ayrı-ayrı ölkələrin yanaşmaları tədqiq edilmiş və müqayisəli təhlil aparılmışdır. İntellektual kapitalın ölkənin iqtisadi artımına və əmək məhsuldarlığına təsiri müəyyən edilmişdir.

***Açar sözlər:sosial-iqtisadi inkişaf, insan kapitalı, intellektual kapital, təhsil, elm, əməkhaqqı.***

## *Giriş*

Hazırda "Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramında əsas prioritet kimi, insan kapitalının inkişafı, onun intellektual səviyyəsinin artırılması və sosial şəraitin yaxşılaşdırılması göstərilmişdir [4]. Belə ki, sosial inkişaf dedikdə, ilk növbədə, hər bir fərdin maddi rifahının yüksəldilməsi və öz potensialından tam istifadəsi başa düşülür ki, bu da öz növbəsində insanlara investisiya qoyulmasını tələb edir.

Vurğulamaq lazımdır ki, sosial inkişaf özündə bir neçə mərhələni birləşdirir. Bunlardan birincisi, erkən yaşında uşaqların təhsili mükəmməl mənimsəməsi üçün investisiya qoyuluşlarının həyata keçirilməsidir ki, bunun da nəticəsində uzunmüddətli uğurların əldə olunmasına şərait yaranır. Beləliklə, hazırda cəmiyyətin rifah halının yüksəldilməsi, sağlam iqtisadiyyatın inkişaf etdirilməsi, ilk növbədə, ölkədə biznesin uğurlu inkişafı ilə bilavasitə bağlıdır.

İkincisi, uşaq qayğı sisteminin inkişaf etdirilməsinə yönəldilən uzunmüddətli dövr üzrə investisiya bir iqtisadi səmərə olaraq geri qayıdacaq.

Üçüncüsü, əhalinin (əsasən də gənc ailələrin) mənzillərlə təmin olunması əsas şərtlərdən biri kimi çıxış edir.

Dördüncüsü, gənclərin inkişafı üçün xidmət və proqramların təklif olunması, ali təhsil imkanlarının yaradılması, yeni iş yerlərinin açılması, sağlam və aktiv həyat tərzinə malik olmasıdır. Təbii ki, sosial inkişaf iqtisadi inkişafla bilavasitə bağlıdır. Dövlətin sosial siyasəti ölkənin iqtisadi inkişafı ilə qarşılıqlı əlaqədədir. Ölkədə iqtisadi fəaliyyətin təmin olunması əhali üçün əlverişli yaşayış şəraitinin yaradılması deməkdir. Belə ki, iqtisadi inkişaf ölkədə məşğulluğun təmin olunma-

sına və iş qüvvəsinin keyfiyyətinin artırılmasına zəmin yaradır. Sosial siyasət öz növbəsində, sosial proseslərin dövlət tərəfindən idarə olunmasıdır.

Dövlətin sosial siyasətinin əsas məqsədi əhalinin tələbatının ödənilməsini təmin edən əlverişli sosial şəraitin yaradılmasıdır.

Qeyd etmək lazımdır ki, sosial siyasətin əsas funksiyalarından biri sosial müdafiənin təmin edilməsidir. Sosial müdafiənin təmin olunması, ilk növbədə ölkənin iqtisadi potensialında sosial siyasətin həyata keçirilməsi üçün makroiqtisadi göstəricilərdən asılıdır. Məhz kasıbçılığa qarşı mübarizə sosial müdafiənin əsas atributlarından biri kimi çıxış edir. Vurğulamaq lazımdır ki, sosial müdafiə sisteminin əsas istiqaməti istehlak qiymətlərinin dövlət tənzimlənməsidir. Belə ki, dövlət təbii inhisarların və dövlət mülkiyyət sektorunun (qaz, elektrik, enerji, rabitə) fəaliyyəti ilə bağlı olan qiymətləri tənzimləyir və bu müxtəlif üsullarla həyata keçirilir. Əsasən bu, güzəştli vergilərin köməyi ilə və s. imtiyazların verilməsi ilə müşahidə olunur. Əlillərə, müharibə iştirakçılarına pulsuz və güzəştli qiymətlərlə verilən dərmanlar, nəqliyyatda pulsuz gediş və s. göstərmək olar. Belə imtiyazların verilməsi yuxarıda qeyd olunanların maliyyə təminatsızlığı ilə bağlıdır ki, buna görə də güzəştlər ünvanlı maddi yardım formasında tətbiq olunur.

**İnsan kapitalının səmərəliliyinin artırılması yolları**

Tədqiqat göstərir ki, insan kapitalı konsepsiyasına görə müasir şəraitdə cəmiyyətin əsas ünsürü yaradıcı insandır və o, davamlı olaraq rəqabətqabiliyyətliliyin, inkişafın və həyat səviyyəsinin yüksəldilməsinin əsas təminatçısı kimi çıxış edir. O, kreativ kapital olduğundan onun əsasında klassik nəzəriyyədəki “iqtisadi insan” modeli və davranış prinsipi durur. Bu modelin əsas müddəası müasir insanın öz yaradıcı imkanlarını geniş reallaşdırmaq və şəxsi keyfiyyətini inkişaf etdirməkdir.

Kreativ iqtisadi nəzəriyyəyə görə yaradıcı insan mikro iqtisadiyyatın yeganə subyekti kimi çıxış edir və onun məqsədi öz kreativ rifahını maksimallaşdırmaqdır.

Müasir dövrdə dünya ölkələrinin inkişaf səviyyəsinin fərqli olması məhz intellektual kapitaldan səmərəli istifadə olunması ilə bağlıdır ki, bu da innovativ inkişafın ayrı-ayrı mərhələlərində bunlara yönəldilən investisiya qoyuluşlarından asılı idi. Məhz hazırda inkişaf etmiş ölkələr xammal-resurs iqtisadiyyatından innovasiyalı iqtisadiyyata keçidi intellektual kapital hesabına etmişlər. Belə ki, bu ölkələrdə milli sərvətin əsasını insan kapitalı, yəni onun intellektual kapitalı təşkil edir. Dünya ölkələri, əsasən ABŞ və Avropa ölkələri insan kapitalına dövlət büdcəsindən üç dəfə çox vəsait ayırırlar və o, ölkənin milli sərvətinin 70%-dən çoxunu təşkil edir. Bu ölkələrin milli sərvəti əsasən intellektual kapital hesabına formalaşır. Göründüyü kimi, müasir iqtisadi inkişafın əsas şərti kimi insan kapitalı çıxış edir və onu formalaşdıran sosial sahələrə, institutlara investisiya qoyuluşları yüksək olmalıdır. Belə ki, insan potensialına qoyulan investisiyaların iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, ilk növbədə, bu sahədə dövlət tənzimlənməsinin əhəmiyyətinin artırılmasından asılıdır.

İnsan kapitalının inkişafına dövlətin sosial xərclərinin, yəni təhsil, səhiyyə və sosial müdafiənin yüksək olması, rəqabət mühitinin yaranması, intellektual əməyə tələbin artırılması, biznes sektorunun bilik və təcrübəsinin artırılması, elmin inkişaf səviyyəsinin, elmə çəkilən xərclərin, əmək haqqının yüksək olması kimi amillər öz təsirini göstərir. Belə ki, 2022-ci ildə Dünya İntellektual Mülkiyyət Təşkilatı tərəfindən aparılan tədqiqatlar əsasında 132 ölkənin iqtisadiyyatında innovasiya fəaliyyəti tədqiq edilmiş və buraya daxil olan 7 qrup indikatordan iki subindeks – innovasiya resursları və innovasiya nəticələri üzrə reytinq aparılmışdır. Aparılan reytinqə əsasən birinci yerdə İsveçrə, ikinci yeri-ABŞ, üçüncü yeri-Böyük Britaniya, Niderland, Almaniya, Daniya, Sinqapur, Finlandiya, Gənubi Koreya, 11-ci yerdə isə Çin Respublikası bərqərar olmuşdur.. Azərbaycan isə postsovet məkanında 93-cü yeri tutmuşdur. Lakin ekspertlər Azərbaycan iqtisadiyyatının güclü tərəflərini göstərmiş, əsasən də siyasi və operativ stabillik üzrə 53-cü yerdə, biznesin aparılması siyasətində - 21-ci yerdə, tələbə və müəllim nisbətində - 9-cu yerdə, elm və texnika sahəsində məzunlar - 42-ci yerdə, tədqiqatçılar - 43-cü yerdə, elmi dərəcəli işə qəbul olunmuş qadınlar - 57-ci yerdə, elm və texnikanın tətbiqi sahəsində universitet və ayrı-ayrı sahələrin birgə fəaliyyəti - 23-cü yerdə, klaster inkişafı üzrə isə 23-cü yerdədir [trend.az].

Vurğulamaq lazımdır ki, adambaşına ümumi daxili məhsulun insan kapitalının ümumi inkişafına təsiri müsbət hesab olunur və xüsusilə inkişaf etmiş ölkələrdə bu göstəricinin insan kapitalının inkişafına yüksək təsiri müşahidə olunur. Belə ki, əhali gəlirləri ilə (əməkhaqqı, ev təsərrüfatlarından əldə olunan gəlirlər) insan kapitalı inkişafı arasında asılılıq yüksəkdir.

Tədqiqat göstərir ki, insan potensialının inkişafında və insan kapitalının formalaşmasında əmək gəlirlərinin rolu əhəmiyyətlidir. Belə ki, 2017-ci ildə 2011-ci illə müqayisədə əmək gəlirlərinin ümumi daxili məhsulun nisbətində artım müşahidə olunmuşdur. Lakin bu artım zəif olmuş və onun əsas səbəblərindən biri əməkhaqqının aşağı olması, peşə, elm, texniki fəaliyyətin, təhsilin, səhiyyənin aşağı səviyyəsi ilə bağlıdır.

Aparılan tədqiqat göstərir ki, əməkhaqqının nominal həcminin artmasına baxmayaraq əmək ödənişlərinin ümumi daxili məhsulda xüsusi çəkisi aşağı düşmüşdür (bax cədvəl 1-ə). Bu azalma ölkədə ümumi daxili məhsulun artım tempinin əmək ödənişlərinin artım tempini üstələməsi ilə əlaqədardır. Vurğulamaq lazımdır ki, MDB ölkələrində, əsasən də Rusiyada bu nisbət 50,4%, Belarusda isə 42,2% olmuşdur. İnkişaf etmiş ölkələrdə bu göstərici 50-70% arasında dəyişilir.

***Cədvəl 1***

***Azərbaycan Respublikasında 2021-ci ildə muzdlu işçilərin iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı, (man)***

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| İqtisadiyyat üzrə – cəmi | 732,1 | 654,2 | 823,2 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 456,9 | 419,4 | 483,9 |
| Mədənçıxarma sənayesi | 3088,3 | 1 698,5 | 3935,6 |
| Emal sənayesi | 685,2 | 870,9 | 655,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 770,0 | 768,6 | 843,2 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 549,6 | 512,0 | 976,5 |
| Tikinti | 887,9 | 729,8 | 934,0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 536,8 | 524,0 | 536,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 953,0 | 887,2 | 1057,0 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 584,9 | 1166,1 | 563,8 |
| İnformasiya və rabitə | 1155,4 | 933,5 | 1 394,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 1 937,6 | 1 932,3 | 1 939,0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 660,0 | 736,9 | 620,9 |
| Peşə, elmi və texniki fəaliyyət | 1 208,9 | 741,3 | 1837,0 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 431,6 | 385,6 | 588,2 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 985,3 | 1019,7 | 329,0 |
| Təhsil | 526,1 | 517,2 | 785,4 |
| Əhaliyə səhiyyə və social xidmətlərin göstərilməsi | 568,2 | 576,5 | 526,2 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 535,7 | 476,9 | 1233,6 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 758,5 | 1220,9 | 701,5 |

***Mənbə:*** *Cədvəl müəllif tərəfindən ADSK-nın müvafiq illər üzrə göstəriciləri əsasında tərtib edilmişdir [1].*

Tədqiqat göstərir ki, iqtisadi inkişafın yüksək olmasına ölkələrdə milli gəlirin artımının 60%-nin biliyin və təhsilin inkişafı əsasında nail olunur. Beləliklə, innovasiyalı iqtisadiyyatın formalaşmasında ölkədə iqtisadi fəal əhalinin tərkibində ali təhsillilərin 60%-ə çatdırılması əsas rol oynayır. Azərbaycanda isə bu göstərici 6,4% təşkil edir ki, bu da vəziyyətin qənaətbəxş olmadığını göstərir.

Vurğulamaq lazımdır ki, təhsil sistemi uzunmüddətli kapital tələb edən bir sahə olaraq yüksək gəlir gətirən sahələrdən biridir.

Dünyanın inkişaf etmiş ölkələrində əməkhaqqının artırılması ilk növbədə təhsilin səviyyəsindən, ixtisas və qabiliyyətindən, təcrübədən asılı olaraq həyata keçirilir. Bu isə öz növbəsində insanları daha yüksək səviyyədə təhsil almağa stimullaşdırır.

Qeyd etmək lazımdır ki, bu günlərdə intellektual əmək insan kapitalının formalaşmasında və inkişafında mühüm rol oynayır. Məhz intellektual əmək sahələrində əməkhaqqının aşağı olması intellektual potensialdan istifadəyə öz mənfi təsirini göstərir və yeni nəsil gənclərin bu sahəyə marağını azaldır.

Qeyd etmək lazımdır ki, yüksək intellektual qabiliyyət yüksək gəlir deməkdir. Belə ki, Ç. Myurrey müəyyən etmişdir ki, intellektual qabiliyyət insanın sosial mənşəyindən asılı olmayaraq onun gəlirlərinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Vurğulamaq lazımdır ki, bütün iqtisadi, sosial, siyasi proseslərdə insan hərəkətverici qüvvə kimi çıxış edir. Bu baxımdan iş qüvvəsinin təkrar istehsala yönəldilməsi, əsasən də insan potensialından daha səmərəli istifadə edilməsi əsas məsələlərdən biri kimi çıxış edir. Nəhayət, iş qüvvəsinin istehlak dəyərinin düzgün müəyyənləşdirilməsi, ümumilikdə, demoqrafik proseslərin tənzimlənməsi, əhalinin intellektual potensialının, işçi qüvvəsinin innovasiya fəallığının artırılması əhəmiyyət kəsb edir.

Ölkədə aparılan iqtisadi islahatlar əhalinin maddi rifahını və həyat səviyyəsini xeyli yüksəltmiş, gəlirlərin artmasına səbəb olmuşdur ki, burada da həm dövlət, həm də əhalinin insan kapitalına investisiya qoyuluşu daha da artır (Bax: cədvəl 2).

*Cədvəl 2*

***Azərbaycan Respublikasında 2010-2021-ci illər üzrə əhalinin nominal və real gəlirləri***

| | 2010 | 2015 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Əhalinin nominal gəlirləri, milyon manat | 25607,0 | 41744,8 | 56769,0 | 55726,1 | 55726,1 |
| Əhalinin sərəncamında qalan nominal gəlirləri, milyon manat | 23405,0 | 38200,0 | 52188,3 | 50689,6 | 51248,1 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 331,5 | 466,9 | 635,1 | 707,7 | 732,1 |
| Əhalinin sərəncamında qalan real gəlirləri, milyon manat* | 22142,9 | 36730,8 | 50865,8 | 49308,9 | 48030,1 |

***Qeyd:*** *Cədvəl müəllif tərəfindən ADSK-nın müvafiq illər üzrə göstəriciləri əsasında tərtib edilmişdir[1].*

Hazırda Azərbaycan dünya ölkələri kimi, insan kapitalının formalaşmasına kapital qoyuluşu həyata keçirir. Aparılan tədqiqat göstərir ki, bir gəncin təhsil alması üçün valideynlər 20-30 min ABŞ dolları miqdarında vəsait xərcləyir ki, bu vəsaitlərin də qaytarılması çox uzunmüddətlidir. Bu da bilavasitə əməkhaqqının aşağı olması ilə bağlıdır. Lakin inkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, bu ölkələrdə valideynlər tərəfindən təhsilə ödənilən 50-60 min ABŞ dollarlı vəsaitin qaytarılma müddəti 5-10 il təşkil edir.

Hazırda əhalinin insan kapitalına investisiya qoyuluşları həyata keçirməsi onların gəlirləri ilə bağlıdır. Əgər əhalinin gəlir səviyyəsi yüksəkdirsə, onlar təhsilə, səhiyyəyə və mədəniyyətə daha çox vəsait ayırırlar ki, bu da onların uzunmüddətli perspektivdə yaşayış keyfiyyətinin yaxşılaşdırılmasına öz təsirini göstərir.

Cədvəl 2-dən göründüyü kimi, Azərbaycan Respublikasında 2010-2021-ci illərdə əhalinin nominal və real gəlirləri 2,2 dəfə artmışdır.

Beləliklə, əhalinin xidmət xərclərinin (təhsil, səhiyyə, mədəniyyət, istirahət və s.) yüksəldilməsi ölkədə intellektual potensialın və insan kapitalının formalaşdırılması və həyat səviyyəsinin yük-

səldilməsində mühüm yer tutur. Lakin tədqiqat göstərir ki, qeyd olunan sahələrdə ölkəmizdə xidmət səviyyəsi elə də qənaətbəxş hesab olunmur, bu da öz növbəsində, həyat keyfiyyətinin yaxşılaşdırılmasına öz mənfi təsirini göstərir.

Beləliklə, tədqiqat göstərir ki, zəif inkişaf etmiş ölkələrdə sosial-iqtisadi inkişafdan geri qalmanın əsas səbəbi insan kapitalı keyfiyyətinin aşağı olmasıdır.

Son illərdə Azərbaycanda islahatların aparılması, insan kapitalının formalaşması və onun ölkə iqtisadiyyatında rolunun artırılması istiqamətində işlər davam etdirilir. Bu, ilk növbədə, təhsil sistemində keyfiyyətin yüksəldilməsinin təmin edilməsi və bu sahəyə investisiya qoyuluşlarının artırılması ilə bağlıdır. Hazırda bu istiqamətdə bir sıra dövlət proqramları və konsepsiyalar qəbul olunmuşdur ki, onlardan “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası [2] və 2013-cü il 24 oktyabr tarixli “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nı göstərmək olar [3].

### *Nəticə*

Belə nəticəyə gəlmək olar ki, Azərbaycanda intellektual kapitalın inkişafının sürətləndirilməsi, ilk növbədə, sosial sahələrə - təhsilə, elmə, səhiyyəyə, mədəniyyətə xərclərin yüksəldilməsi ilə bağlıdır. Məhz təhsilin keyfiyyətinin yaxşılaşdırılması və elmi-tədqiqat işlərinə investisiya qoyuluşlarının həyata keçirilməsi vacibdir. Bu istiqamətdə islahatların aparılması zəruri hesab olunur.

Azərbaycan Respublikasında intellektual kapitalın inkişafının təmin olunması ölkədə iqtisadi artıma və əmək məhsuldarlığının yüksəldilməsinə təsir göstərəcək.

### ƏDƏBİYYAT


1. https: //www.stat.gov.az
2. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, 29 dekabr 2012.
3. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”. Bakı, 24 oktyabr 2013.
4. “Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı” Dövlət Proqramı. Bakı, 29 yanvar 2019.
5. İnsan kapitalının inkişafı iqtisadi strategiyanın əsas hədəflərindən biridir. http://ucnoqta.az/news/ 14075



***Мехин Хагани кызы Шахсуварлы***
***Азербайджанский Университет Кооперации, диссертант***
***E-mail*: *mehin.haciyeva.92@bk.ru***


## Интеллектуальный капитал как основной приоритет социально-экономического развития


### *Резюме*

В статье отмечается, что одним из основных приоритетов социально-экономического развития и улучшения его социального положения, выступает человеческий капитал. Социальное развитие, в свою очередь, тесно связано с экономическим развитием. В этой связи социальные расходы государства, в особенности на образование, здравоохранение, науку, заработную плату и др. оказывают воздействие на человеческий капитал, а их рост означает повышение его интеллектуального развития.

***Цель исследования*** - человеческий капитал, как основной приоритет социально-экономического развития страны, его интеллектуальное развитие, улучшение социального положения и разработка в этом направлении предложений и рекомендаций.

***Методология исследования*** - использованы методы комплексного и системного подхода к исследуемой проблеме, сравнительному анализу, статистическим группировкам.

***Прикладная значимость исследования*** - полученные результаты могут быть использованы с теоретической и практической точки зрения в определении характеристик современного развития экономики Азербайджанской Республики .

***Результаты исследования -*** Повышение эффективности человеческого капитала и увеличения его интеллектуального уровня в условиях ускорения социально-экономического развития Азербайджанской Республики, разработка предложений и рекомендаций, связанных с интеллектуальным капиталом.

***Оригинальность и научная новизна исследования*** – в статье изучен мировой опыт поставленной проблемы, исследованы подходы отдельных стран и проведен сравнительный анализ. Определено влияние интеллектуального капитала на экономический рост страны и производительность труда.

***Ключевые слова: социально-экономическое развитие, человеческий капитал, интеллектуальный капитал, образование, наука, заработная плата.***

***Mehin Khagani Shahsuvarli***
***Azerbaijan Cooperation University, dissertant***
***E-mail: mehin.haciyeva.92@bk.ru***

**Intellectual capital social-economic development as a top priority**

***Summary***

The article mentions that one of the main priorities of socio-economic development is the improvement of human capital and its social condition. Social development, in its turn, is closely related to economic development. From this point of view, social expenses of the state, such as education, healthcare, scientific expenses, wages affect to human capital and their increase means the intellectual development of human capital.

***The purpose of the research is*** - human capital as the main priority of the country's socio-economic development, its intellectual development, improvement of its social situation, and development of proposals and recommendations in this direction.

***Research methodology*** - systematic and complex approach to the investigated problem, comparative analysis, statistical grouping and economic analysis methods were used.

***Application importance of the research*** - the obtained results can be used in determining the modern development features of the economy of the Republic of Azerbaijan from a theoretical and practical point of view.

***The results of the research -*** increasing the efficiency of human capital in the acceleration of socio-economic development in the Republic of Azerbaijan, raising its intellectual level - preparing proposals and recommendations related to intellectual capital.

***Originality and scientific novelty of the research*** - the world experience of the problem posed in the article was studied, the approaches of individual countries were studied and a comparative analysis was carried out. The impact of intellectual capital on the country's economic growth and labor productivity has been determined.

***Key words: socio-economic development, human capital, intellectual capital, education, science, salary.***